https://doi.org/10.59849/3006-1342.2025.3.71
UOT 94(479.24)

*Günay Xaliq qızı Talıbova*
*AMEA Gəncə bölməsi*
*Elmi işçi*
*E-mail: talibovag@gmail.com*
*Orcid:0000-0003-1495-2961*

# ŞƏKİ XANLIĞININ RUSİYA İMPERİYASI İLƏ DİPLOMATİK ƏLAQƏLƏRİ (QAKA-NIN MATERİALLARI ƏSASINDA)

*Xülasə:* Azərbaycanın dövlətçilik tarixində özünəməxsus rolu olmuş Şəki xanlığının mövcud olduğu dövrdə apardığı daxili və xarici siyasət, Cənubi Qafqazın işğalını özünün əsas siyasi xəttlərindən birinə çevirmiş Rusiya imperiyası tərəfindən daim izlənilirdi. Xüsusilə də Şəki xanlığının Azərbaycanın birləşdirilməsi uğrunda apardığı mübarizə Rusiya imperiyasının siyasi mənafeyinə uyğun deyildi. Yarandığı ilk illərdən Şəki xanlığının ərazisinin genişləndirilməsi və xanlığın nüfuzunu gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər Rusiya imperiyasını müəyyən mərhələdən sonra narahat etməyə başlamışdır ki, bunun da nəticəsində xanlıq imperiya tərəfindən siyasi manevrlər yolu ilə əvvəl işğal edilmiş, sonradan isə tamamilə ləğv edilmişdir. Bəhs olunan siyasi məsələlərin dəqiqliyi ilə öz əksini tapdığı qiymətli mənbə olan Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları bizə həmin dövrü dərindən öyrənməyə imkan verir. Məqalə də məhz QAKA–nın müxtəlif cildlərində qorunaraq günümüzədək gəlib çatmış həmin qiymətli tarixi sənədləri əsasında yazılmışdır.

*Açar sözlər:* Azərbaycan, Rusiya imperiyası, Şəki xanlığı, Səlim xan, Kürəkçay müqaviləsi

*Giriş*

Nadir şahın qətli ilə onun imperiyasının dağılması və Şəki xanlığının liderliyində Azərbaycanda digər müstəqil xanlıqların ortaya çıxması, Azərbaycan dövlətçilik tarixinin yeni bir mərhələsi idi. Lakin Nadir şahın ölümü və imperiyasının dağılması ilə Rusiya bölgədə özünə bərabər olacaq bir qüvvənin qalmadığını anlamışdı. Regional vəziyyət də Rusiyanın xeyrinə idi: İranda hakimiyyət uğrunda mübarizə gedirdi, Azərbaycanda və Gürcüstanda siyasi dağınıqlıq hökm sürürdü, Osmanlı dövləti isə 1735-1739-cu və 1768-1774-cü illər müharibələrindən sonra çox zəifləmişdi. 1762-ci ildə Rusiyada taxta iddialı bir imperatriça II Yekaterinanın (1762-1796) gəlməsi isə I Pyotrun Qafqaz siyasətinin davamı olaraq Xəzəryanı bölgələrlə bağlı işğalçılıq planlarının həyata keçirilməsi üçün konkret addımların atılmasına yol açmışdı. Rusiya – Osmanlı müharibəsi başa çatdıqdan dərhal sonra (1774) Rusiya bölgənin xristian gücü olan Kartli-Kaxetini himayəsi altına almaq üzrə planlarını həyata keçirməyə başladı. 1783-cü il Georgiyevsk müqaviləsi ilə Şərqi Gürcüstan Rusiya imperiyasının himayəsi altına keçərək müstəqil xarici siyasət yeritməkdən məhrum edildi [7, s. 93]. Bununla yanaşı, traktat gürcü çarına Azərbaycan xanlıqları arasındakı ədavətdən yararlanıb, bölgədə güclənmək, o cümlədən Azərbaycan torpaqlarının ələ keçirmək iddialarını həyata keçirmək imkanı verdi. Rusiyanın özünə gəlincə, Georgiyevsk traktatı faktiki olaraq az bir müddət fəaliyyətdə qalsa da, çarizmin Cənubi Qafqazda işğalçılıq siyasətinin hazırlıq mərhələsi oldu. Bu mərhələdə Rusiyanın yeni rəqibinin – Qacar dövlətinin ortaya çıxması işğalı bir neçə illiyinə geri atmış oldu.

*Əsas hissə.* QAKA materialları arasında Rusiya işğalı ərəfəsindəki münasibətləri əks etdirən sənədlər içərisində Şəki xanlığındakı hərbi-siyasi vəziyyət, Şəki xanlarının digər

xanlarla və Qacar dövləti ilə münasibətlər haqqında rus məmurlarına verilən təlimatlar və onların raportları üstünlük təşkil edir. Bu təlimat və raportlar, bir tərəfdən, Rusiyanın Azərbaycandakı hərbi-siyasi vəziyyətə cidd-cəhdlə nəzarətdə saxladığını, digər tərəfdən isə, kəşfiyyat xarakterli fəaliyyətinin davam etdiyini göstərir.

İşğal ərəfəsində rus hökumətinin hərbçilərə verdiyi təlimatlar içərisində general V.Zubova göndərilmiş 19 fevral 1796-cı il tarixli təlimat xüsusi yer tutur. Təlimatda qeyd olunur: "Astrabad körfəzinin ələ keçirilməsi Xəzər dənizinin şərq sahilində donanma qurmaq və buradakı əlverişli limanı tutmaq imkanı verə bilər ki, bu da eyni dərəcədə əlverişli olan Ənzəli limanında gəmilərimizin lövbər salması və möhkəmlənməmiz üçün yol açar ... Ənzəli və Astrabad limanlarını ələ keçirərsək, birdəfəlik təhlükəsiz və kifayət qədər möhkəmləndirilmiş dayaq nöqtəsi əldə etmiş olarıq" [13, s. 815-816]. Bu planın başlıca məqsədi Azərbaycanda möhkəmlənmək və bunun ardınca da Xəzər dənizinin cənub sahillərinə çıxmaq, İran körfəzinə çıxış əldə etmək idi.

II Yekaterina hökuməti hələ 1795-ci ilin sonlarında V.Zubovun yürüşünü başlatmaqla Qacar dövlətinin işğalçılıq planlarını qabaqlamaq, Azərbaycan xanlarını öz tərəfinə çəkməklə isə vəziyyəti Rusiyanın xeyrinə dəyişmək niyyətində idi. General Qudoviçin raportuna əsaslanaraq, Rusiya Dövlət Şurasının verdiyi qərarda da bu plan öz əksini açıq-aşkar tapmışdı [16, s.163-164]. Bu zaman Şəkidəki hərbi-siyasi vəziyyətin mürəkkəb olması (Məhəmməd Həsən xan və Səlim xanın tərəfdarları arasındakı çəkişmələr) xanlığın Rusiya işğalı ilə bağlı tərəddüdlərini də ortaya qoyur. Hərçənd ki, mənbələrdəki məlumatlardan məlum olur ki, V.Zubovun yürüşü zamanı Şəkidə hakimiyyətə yeni gəlmiş Səlim xan, həmçinin Qarabağ xanı İbrahim Xəlil xan Rusiya himayəsini qəbul etməyə razı olmuşdular. Bunu həm A.A.Bakıxanovun verdiyi məlumat [2, s. 135], həm də Səlim xanın sonralar knyaz Sisianova yazdığı məktubun məzmunu da göstərir [8, s. 637]. 1796-cı ilin noyabrında yeni çar I Pavelin (1796-1801) hakimiyyətə gəlməsi hələ Azərbaycan xanlıqları üçün Rusiya təhlükəsinin bitdiyi anlamına gəlmirdi.

Rusiya işğalı ərəfəsində Şəki xanlığında üç dəfə hakimiyyət dəyişikliyi baş vermişdi ki, bu da xanlığı xarici işğal qarşısında müdafiəsiz vəziyyətə gətirmişdi: Məhəmməd Həsən xanın (1784-1795) hakimiyyətinin ardından Səlim xan (1795-1797), onun ardından isə təkrar Məhəmməd Həsən xan (1797-1805) hakimiyyətə gəlmişdi [11, s. 1120]. Hər iki xan işğal ərəfəsində Rusiya imperiyası ilə bağlı münasibətlərində tərəddüdlü siyasət nümayiş etdirmişdilər; bu da öz növbəsində Şəki xanlığının siyasi və diplomatik müdafiəsizliyini artırmışdı.

Qeyd edək ki, 1799-cu ilin martından 1802-ci ilin sentyabrınadək (faktiki olaraq 1803-cü ilin əvvəllərinədək) Rusiyanın Qafqaz diviziyasının komandiri və Gürcüstanda baş komandan (1801-ci ildən) vəzifələrində çalışmış general-leytenant K.Knorrinqin (General – leytenant Karl Knorrinq 1768-1774–cü il və 1787–1792–ci illər Rusiya – Osmanlı müharibələrinin də iştirakçısı olub) Cənubi Qafqazdakı fəaliyyəti QAKA-nın I cildində xüsusi bölmədə öz əksini tapmışdır və qiymətli sənədləri ehtiva edir. O cümlədən yuxarıda qeyd etdiyimiz reskript və raportda Şəki xanı Məhəmməd Həsən xanın Rusiya himayəsini qəbul etməklə bağlı müraciətlərinin olduğunu göstərməkdədir. Bundan əlavə, bu sənədlərdə çar I Pavelin Qafqazla bağlı qətiyyətsiz siyasəti də öz əksini tapmışdır. Məsələn, 12 avqust 1800-cü il tarixli reskriptində çar Şamaxı xanı (sənəddə Şirvan) Mustafa xanın və Şəki xanı Məhəmməd Həsən xanın himayə ilə bağlı müraciətlərinə müsbət yanaşdığını bildirsə də, eyni zamanda K.Knorrinqə xanlar arasındakı qarşıdurmalara qarışmamağı tövsiyə edir [7, s. 134]. Bəlkə bu səbəbdəndir ki, K.Knorrinq general-mayor Lazarevə ünvanladığı 15 dekabr 1800-cü il tarixli təlimatnamədə "Nuxa (Şəki – G.T.) xanının İmperator Ali Həzrətlərinin himayəsini qəbul etmək istəyinə gəlincə ... bu istəyi birbaşa İmperator Ali Həzrətlərinə bildirməsini söyləyin" deyə yazırdı [7, s. 630]. General-mayor Lazarev də öz növbəsində Məhəmməd

Həsən xana ünvanladığı 28 dekabr 1800-cü il tarixli məktubunda K.Knorrinqin bu tövsiyəsini bildirmiş [7, s. 630], Məhəmməd Həsən xan və Şamaxılı Mustafa xan öz qasidləri vasitəsilə bu istəyin rəsmi olaraq çara bildirilməsini istəmişlərdi [7, s. 630].

1800-cü ilin sonlarına doğru rus sarayında vəziyyət çox gərginləşmişdi, I Pavelin daxili siyasəti, ona qarşı güclü müxalifətin ortaya çıxmasına səbəb olmuşdu. Üstəlik Fransa inqilabının qorxusu altında çar bütün xarici siyasət diqqətini inqilabın qarşısının alınması məsələsinə yönəltmişdi. Bu ciddi hadisələrin fonunda, 1801-ci il martın 11-dən 12-nə keçən gecə baş verən saray çevrilişi nəticəsində imperator I Pavel qətlə yetirildi və yerinə böyük oğlu I Aleksandr (1801-1825) hakimiyyətə gətirildi. Yeni çar nənəsi II Yekaterinanın “qanunları və ürəyi ilə” dövləti idarə edəcəyinə söz verdi. Liberal dairələrdə tərbiyə almasına baxmayaraq, I Aleksandrın dövlət idarəçiliyində həyata keçirdiyi islahatlar Rusiyada istibdadın və mütləqiyyətin möhkəmləndirilməsinə yönəldilmiş olub, tezliklə xarici siyasətdə də öz əksini tapmış oldu.

Azərbaycan istiqamətində I Aleksandrın siyasəti sələfi I Pavelin Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında məşhur 1801-ci il reskriptinin ardından I Aleksandrın 12 sentyabr 1801-ci il Manifestini imzalaması [7, s. 432-433] ilə təkcə Kartli-Kaxeti çarlığının deyil, Azərbaycanın tarixi torpaqlarının bir qisminin (Pəmbək, Qazax, Borçalı və Şəmşəddil) də Rusiyaya birləşdirilməsilə nəticələndi. Bunun ardınca Azərbaycanın digər xanlıqlarının, o cümlədən Şəki xanlığının işğalı məsələsi Rusiya üçün aktuallaşdı. Azərbaycanın şimal-qərb torpaqlarının ələ keçirilməsi Rusiya hərbi gücü üçün birinci dərəcəli əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar knyaz Sisianovun 17 aprel 1803-cü il tarixli raportunda deyilir: “Bu mövqelərin ələ keçirilməsi və hərbi hissələrin burada yerləşdirilməsi Gürcüstanın Bakı ilə Gəncədən gedən məlum yolda Kürün sol sahilindən sağa və sağ sahilindən təkrar sola keçərkən rast gəlinən və keçilməsi çətinlikləri törətməyən kiçik çay keçidləri vasitəsilə Nuxa və Şamaxıdan keçən mühüm əlaqənin yaranmasına imkan verir” [8, s. 686]. Bu bölgələrin ələ keçirilməsinin bir başqa səbəbi, ondan ibarət idi ki, buranın itaətsiz əhalisinin “ram edilməsi Qafqazda rus xofunun yaranması və gələcək müvəffəqiyyətin təminatı demək idi” [4, s. 112].

QAKA-dakı 1800-1804-cü illərə aid sənədlərindən aydın olur ki, Şəki xanlığı üçün bu illərdə iki böyük təhlükə – Qacar dövlətinin işğalı təhlükəsi və Rusiya təhlükəsi çox artmışdı, amma bu iki təhlükəni gücləndirən amillər daxili xarakterli olub Məhəmməd Həsən xan ilə Səlim xan arasında hakimiyyət uğrunda mübarizə və digər xanlıqların, xüsusilə Qarabağ xanlığının carlıların köməyilə Şəkinin daxili işlərinə qarışmaq istəyi idi. Hakimiyyətdə olan Məhəmməd Həsən xan çıxış yolunu bu güclər arasında manevr etməkdə görürdü. Məsələn, general-leytenant K.Knorrinqin 25 avqust 1802-ci il tarixli raportunda qeyd edilir ki, “Baba xanın sərdarı Pirqulu xan Qarabağ xanı İbrahim xanla və hazırda Şuşada olan gürcü şahzadəsi Aleksandrla görüşərək əvvəlcə Şamaxı, daha sonra Şəkinin üzərinə yürüş etmək niyyətindədir ki, ordakı xanı devirib yenisini təyin etsin ... Məhəmməd Həsən xan isə Pirqulu xanın yürüşünü önləmək üçün Xoylu Cəfərqulu xanla ittifaqa girmişdir” [7, s. 692]. Yenə bu raportun ardından K.Knorrinqin 2 noyabr 1802-ci il tarixli bir başqa raportunda qeyd olunur: “Pirqulu xan hazırda 4 minlik qoşun korpusu ilə Naxçıvandadır. Şuşalı İbrahim xan öz oğlunu və Şəki hakimiyyətinə iddiaçı olan Səlim xanı onun yanına göndərmişdir. İbrahim xan Pirqulu xanı Şuşaya gəlməyə çağırır və onu əmin edir ki, Car ləzgilərini Şəkiyə hücum etməyə razı salmışdır. Pirqulu xan isə Baba xandan hər hansı bir göstəriş almadığı üçün İrəvana nəzarət etməsi bəhanəsilə Şuşaya gəlməyə cürət etmir. İbrahim xanın farsları və carlıları Şəkinin üzərinə yönəldəcəyi xəbərini Məhəmməd Həsən xandan alan Mustafa xan onu bu sözlərlə əmin edir ki, “Qorxma, nə qədər mən sağam, hakimiyyətdə qalacaqsan. Pirqulu xan Şuşaya gəldiyində mən onu qoşunumla qarşılayacam. O, sənin mülklərinə girə bilməz. Sadəcə Car keçidlərini bağla, başqa heç bir qayğın olmasın.” [7, s. 692].

Qeyd edək ki, Qacar hökmdarı Fətəli şahın - Baba xanın bölgədə fəallaşması Rusiya

imperiyasının bölgədəki işğalçılıq fəaliyyətinin qarşısını nəinki almadı, əksinə, daha cidd-cəhdlə həyata keçirməsini sürətləndirdi. Bu siyasətin tərkib hissəsi kimi 1802-ci ilin sonuna doğru (rəsmi olaraq sentyabrda) Gürcüstandakı rus qoşunlarının baş komandanı vəzifəsinə general-leytenant Knorrinqin yerinə general-leytenant knyaz P.D.Sisianov [4] təyin edildi. Sisianov vəzifəsinin icrasına 1803-cü ilin fevralında başladı [8, s. 3-4, s. 17]. Vəzifəyə təyin edilməsindən çox az bir müddət sonra P.Sisianov Rusiyanın Cənubi Qafqazda böyük miqyaslı işğalçılıq ekspansiyasını başlatdı. 1803-cü il martın 2-də general V.Gulyakovun komandanlığı ilə Cara hərbi ekspedisiya başladı [17, s. 88]. Martın 8-də Balakən, martın 29-da isə Carı işğal etməyə müyəssər olan ruslar aprelin 12-də Car-Balakən camaatlığını əhdnamə bağlamağa məcbur etdilər [8, s. 683-684]. Tezliklə öhdəlikləri yerinə yetirməkdən imtina edən carlılar ruslarla təkrar toqquşmalı oldular və 1804-cü ilin yanvarında V.Gulyakovun qoşunları Cara daxil oldu. Car-Balakən camaatlığı və İlisu sultanlığı “Rusiya imperiyasının Azərbaycandakı işğalçılıq siyasətinə qarşı azadlıq müharibəsinin forpostlarından birinə çevrildi” [17, s. 89].

Car-Balakənin işğalından sonra car-balakənlilərin və şəkililərin, həmçinin ilisuluların birgə hərbi və siyasi fəaliyyətləri Rusiya üçün arzuolunmaz hal olmuşdur. Bu səbəbdən də Rusiya müstəmləkəçi dairələri hər vəchlə bunun qarşısını almağa çalışır, mərkəzə göndərdikləri məktub və raportlarında Şəkinin carlılara və ilisululara dəstək verməsinin təhlükəli həddə çatdığını və bu səbəbdən də, Məhəmməd Həsən xanın, eləcədə Şəkidə hakimiyyətə iddialı olan Səlim xanın nə yolla olursa olsun, Rusiya himayəsini qəbul etmələrinin zəruriliyini vurğulayırdılar. Məsələn, general-mayor knyaz Orbeliani knyaz Sisianova ünvanladığı 6 aprel 1804-cü il tarixli raportunda carlıları hədələdiyini yazırdı; qeyd edək ki, knyaz eyni hədələyici məzmunda məktubu Şəki xanı Səlim xana da göndərmişdi [8, s. 691-692]. General Sisianov İlisulu Əli Sultana 29 aprel 1805-ci il tarixli göstərişində isə sultandan torpaqlarında sığınacaq verdiyi şəkili Şirin bəy və ailəsini, həmçinin Məmməd Həsənin üç oğlunu Şəkili Səlim xana təslim etməyi əmr etmişdi [8, s. 695].

Car-Balakəndə və İlisudakı bu hadisələr fonunda Rusiyanın Qacar dövləti ilə münasibətləri pisləşdi. Belə ki, 1804-cü ilin mayında Fətəli şah rus qoşunlarının bölgədən çıxarılmasını tələb etdi, tələb rədd edilincə iyulun 10-da “Rusiya ilə İran arasında diplomatik əlaqələr kəsildi, 10 il davam etmiş Rusiya – İran müharibəsi başlandı” [1, s. 16].

1804-1813-cü illər I Rusiya – Qacar müharibəsinin başlaması ilə Şəki xanlığının vəziyyəti daha da ağırlaşdı. Digər xanlıqlardan fərqli olaraq, onun vəziyyətini ağırlaşdıran təkcə xarici işğal təhlükəsi deyildi, eyni zamanda salan hakimiyyət uğrunda mübarizə idi. P.Sisianov Şəki xanlığının strateji əhəmiyyətini, eləcə də daxili vəziyyətindəki bu məqamı nəzərə alaraq həm hakimiyyətdə olan Məhəmməd Həsən xanla, həm də hakimiyyətə iddialı olan Səlim xanla əlaqə saxlamaq qərarına gəlmişdi. QAKA-nın müvafiq cildlərində hər iki Şəki xanı ilə Sisianovun və digər rus zabitlərinin məktubları əksini tapmışdır. Bu məktubların böyük bir qismi Gəncənin ruslar tərəfindən işğalından sonrakı dövrə aiddir ki, bu da ilk növbədə, Məhəmməd Həsən xanın bacısı Məliknisə bəyim və qızının əsir alınması, digər tərəfdən isə, Şəki xanlığının özünün işğal ərəfəsində olması ilə əlaqəlidir. Məhəmməd Həsən xan 1804-cü il yanvarın 4-də Sisianova məktub yazaraq bacısının və bacısı qızının azad edilməsini xahiş etmişdir. Bu xahişə cavab olaraq Məhəmməd Həsən xana göndərilən 9 yanvar 1804-cü il tarixli məktub həm general Sisianovun, həm də onun timsalında Rusiya imperiyasının Azərbaycan xanlarına olan təkəbbürünün və nifrətinin nümunəsi kimi qəbul edilə bilər: “Məktubunuzu aldım və maddələrə görə ona cavab verəcəyəm. Yazırsınız ki, müzəffər Rusiya ordusu tərəfindən Gəncə qalasının alınması xəbərini öyrəndiniz. *O zaman niyə məni bu zəfər münasibətilə təbrik etmirsiniz?* Yazırsınız ki, o məlun və qürurlu Cavad

[4] Qədim gürcü ailələrindən olan Sisişvili (əvvəlki soyadları Panasketeli) nəslinin nümayəndəsidir. Sisişvili ailəsi Rusiya himayəsinə keçdikdən sonra Sisianov soyadını qəbul etmişdir.

xanın arvadı sizin bacınızdır və ümidsiz vəziyyətdədir. Siz hesab edirsiniz ki, böyük imperatorumuzun generalları sizin bacınızı ümidsiz vəziyyətdəmi qoyacaqlar? Mən hücumdan sonrakı gün ona 600 rubl göndərilməsini və ömrünün sonunadək məvacib kəsilməsini Əlahəzrətdən xahiş etmişəm ... Xanın arvadı Bəyimi (Məliknisə xanımı) azad edirəm və qızı ilə birlikdə xahiş etdiyiniz kimi, yanınıza göndərirəm. Siz yazırsınız ki, oraya gəldiyimdə ali hakimiyyətə düşmənçilik və müqavimət göstərilməyəcək. *Deyin görüm mənə, Avropada və Asiyada böyük bir gücə və şöhrətə sahib olan Rusiya dövlətinə siz müqavimət göstərmək iqtidarındamısınız? Məgər milçək qartalla, dovşan aslanla döyüşə bilərmi?* Əmin ola bilərsiniz ki, bircə əmrim kifayətdir ki, Nuxa xanlığı da Gəncə xanlığı kimi məhv edilsin" [8, s. 636-637].

Bu zaman vəziyyətin onun xeyrinə dəyişə biləcəyini düşünən (Məhəmməd Həsən xana qarşı Sisianovun təkəbbür nümayiş etdirməsindən, özünün isə anasının gürcü olmasından cəsarətlənən) Səlim xan Rusiyanın yardımına arxalanaraq Şəkidə hakimiyyətini bərpa etmək qərarına gəldi. 2 aprel 1804-cü il tarixli məktubunda Səlim xan general Sisianova yazırdı: "Siz ali həzrətlərinə bildirmək istəyirəm ki, qraf Zubov bu diyarlara gəldiyində mənimlə tam dostluq münasibətlərində olub məni Rusiya himayəsinə qəbul etmişdi. Bunun qarşılığında məndən yazılı təminat alınmışdı ki, indiyədək də bu təminat qüvvəsindədir. Lakin İran hökmdarı Ağa Məhəmmməd xan gəldikdən sonra qəzəblənərək məni öz mülkümdən qovdu və indiyədək sərgərdən qalmışam. Gəncənin alınmasından sonra buraya gələn mayor Lisaneviçlə danışıq apararaq Hacı Nəzər bəyi sizin yanınıza göndərdim ki, məni əmin edəsiniz və yanıma dayımı və ya başqa bir etibarlı adamı göndərisiniz ki, mən də sizin yanınıza gəlim ... Bu məktubu göndərərək və İmperator Ali Həzrətləri  təbəəliyində qalaraq sizdən də məni əmin etmək üçün and içməyinizi və yanıma etibarlı birini göndərməyinizi xahiş edirəm ... Ümid edirəm ki, təklifimi qəbul edərək mənim mülklərimdə hakimiyyətimi bərpa edəcəksiniz. Əlbəttə, sizin məktubunuz mənim üçün and və təminat yerinə keçir, amma böyüklərin kiçiklərə qayğı göstərməsinin və himayəyə almasının bir təsdiqi olması doğru olardı" [8, s. 637]. Bu məktub knyaz Sisianovun böyük qəzəbinə səbəb olmuş və Səlim xanın istədiklərini nəinki yerinə yetirməmiş, hətta ona cavab məktubunu belə özü deyil, başqa bir çar zabiti polkovnik Karyagin yazmışdı: "Əslində mən möhürlə təsdiqlənməmiş bir məktuba cavab verməməli idim, amma ali rəisim knyaz Sisianovdan aldığım göstərişlə sizə cavab yazıram. Sisianov göstəriş verdi ki, bundan sonra möhürsüz məktub göndərməyə cəsarət etməyəsiniz, əks halda o nəinki cavab verməyəcək, üstəlik bu ağ kağıza heç bir etibarı olmayacaq. Elə bu səbəbdən o, məktubunuzu geri qaytarmışdır, hansı ki, həmin yazıda siz ondan əmin etməsi ilə bağlı qəribə bir xahiş etmisiniz ... hesab edirsiniz ki, belə bir ali vəzifədə olan bir rusiyalı sizin İran adətləri ilə hərəkət edəcək? Sizin Nuxada xan olmağınızı istəyəcək? ... Əgər Nuxada hakimiyyətinizin bərpa edilməsini istəyirsinizsə, *belə möhürsüz axmaq məktublar göndərmək yerinə, Tiflisə, onun yanına gəlməlisiniz*" [8, s. 637].

Səlim xan Şəkidəki hakimiyyətini bərpa etməkdə israrlı idi və istər knyaz Sisianov, istərsə də digər çar zabitləri ilə əlaqələri davam etdirirdi. A.A.Bakıxanov yazır: "Bu zaman, Rüstəm xan üsmi vəfat etdi. Onun yerində Ustar xan oğlu Əlixan üsmi oldu. Araya ədavət düşdü. Mustafa xan Səlim xanı Qarabağdan gətirdib, Şəkinin üzərinə getdi. Məhəmməd Həsən xan qarşıya çıxaraq, vəziyyəti istədiyi kimi görməyib qoşunu azad etdi. Özü də Mustafa xanın yanına gəldi. Mustafa xan hər iki qardaşını Şirvana gətirib, əmisi oğlu Şeyx Əli bəyi Şəkidə naib təyin etdi. Lakin Şəki əhalisi üsyan qaldırdı. Onun qardaşı Məhəmməd Həsən xan tərəfindən kor edilən Fətəli ağanı xanlığa qəbul etdilər. Üç aydan sonra, Mustafa xan çarəsiz qalıb, Səlim xanı Şəkiyə hakim göndərdi və onun qızını özü üçün aldı. Məhəmməd Həsən xan Qubaya, Dərbəndə və buradan da Cara, axırda rusların yanına gedib, Hacı Tərxana göndərildi" [2, s. 141]. Beləliklə, 1805-ci ildə Səlim xanın hakimiyyəti qısa

müddətliyinə (1805-1806) bərpa edildi. Məhz bundan sonra hadisələr sürətləndi və Şəki xanlığının Rusiya tərəfindən işğalı reallaşdırıldı.

Rusiya himayəsinə keçməkdə israrlı olan Səlim xanın müraciətlərinə cavab olaraq general Sisianov Şəkidə hakimiyyətini bərpa etmiş xana yazdığı təbrik məktubunda (13 fevral 1805-ci il tarixli) bu himayənin gerçəkləşdirilməsi üçün bir əhdnamə imzalanmasının zəruri olduğunu qeyd etmişdi. Belə ki, Sisianova görə, Səlim xanın imzalayacağı əhdnamə aşağıdakı bəndlərə görə tərtib edilməli idi: "Birincisi, oğlunuz əmanət olaraq göndəriləcək. İkincisi, İmperator Ali Həzrətləri himayəsini qəbul etməyinizin bir göstəricisi olaraq illik 7000 çervon xərac ödəyəcəksiniz. Üçüncüsü, rus ordusunun 500 nəfərlik dəstəsi mülklərinizi qoruyacaq və onların təchizatı üçün illik 520 xalvar un, 80 ½ xalvar buğda verəcəksiniz. Dördüncüsü, zabitlərimin seçdiyi yerdə və onların planına uyğun olaraq qala-istehkam quracaqsınız və bunun üçün lazım olan işçi qüvvəsini təmin edəcəksiniz". Bu məktuba əlavə olaraq verilən əhdnamənin mətni də Səlim xana göndərilmişdi. Qeyd edək ki, eyni məzmunlu əhdnamə Qarabağ xanı İbrahimxəlil xana da göndərilmişdi [8, s. 642].

Bu zaman Qacar dövləti ilə hərbi əməliyyatlar davam edirdi və Şəki xanlığı üçün diplomatik-siyasi baxımdan da çox mürəkkəb vəziyyət yaranmışdı. İki böyük dövlət arasında əvvəlki kimi manevr etmək mümkünsüz olmuşdu. Bunu Səlim xanın general Sisianova yazdığı məktubdan da görmək olar. Məktubda Şəki xanı Rusiyaya olan sədaqətini bildirərək yazır: "Cümə axşamı (22 mart 1805-ci il – G.T.) Baba xan yanıma fərmanı ilə birlikdə öz qasidini və Şirvanlı Mustafa xanın adamını göndərdi. Onlar ruslardan ayrılıb [Baba xanın] tərəfinə keçəcəyim təqdirdə mənə aman veriləcəyini vəd etdilər. Mən isə buna cavab olaraq bildirdim ki, İbrahim xan ilə birlikdə Rusiya qoşunlarının sərdarı ilə (Sisianovu nəzərdə tutur – G.T.) görüşüb traktat imzalamışam və farslarla birləşə bilmərəm" [8, s. 644].

Bundan sonra hadisələr sürətlə irəliləyərək, Şəki xanlığının Rusiya imperiyasının himayəsinə keçməsi haqqında müqavilənin imzalanması ilə nəticələndi. 1805-ci il mayın 14-də Qarabağ xanlığının Rusiyanın himayəsinə keçmək haqqında imzaladıqları Kürəkçay müqaviləsinin ardından [8, s.702-705], mayın 21-də Şəki xanlığı ilə də eyni məzmunlu müqavilə imzalandı [8, s705-707; 8, s. 646-647]. Bununla əlaqədar Sisianovun knyaz Çartoriyskiyə göndərdiyi 22 may 1805-ci il tarixli 328 saylı sənəddə əsasən aşağıdakılar qeyd olunur: "Siz həzrətlərin vasitəsilə İmperator Ali Həzrətlərinə bildirmək lütfü mənə nəsib olmuşdur ki, bu ayın 14-də Qarabağ xanı İbrahim xanla imzalanan traktatın eynisini ayın 21-də Şəki xanlığının Rusiya imperiyasının himayəsinə keçməsi haqqında Səlim xanla da imzalandı ... Qarabağ xanı 85 yaşlı qocadır, ümumilikdə sözündə bütöv və sədaqətlidir, amma yaşlılıq onun bu yaxşı xüsusiyyətlərini zəiflətmişdir. Amma xoşbəxtlikdən onun üç oğlu, fərqli xasiyyətlərə sahib olsalar da, üçü də yekdilliklə Qarabağ xanlığını müdafiə etməkdə israrlıdırlar və buranın xalqı, ələlxüsus süvariləri çox qəhrəmandır. Şəkili Səlim xana gəlincə, nə sözü bütövlüyü, nə də igidliyi ilə məşhur deyil. Onun mülklərində məskun olmuş xalq isə, ləzgi mülkləri ilə sərhəd olub, onlardan asilik və özbaşınalıq öyrənmişdir" [8, s. 705-706]. Bu sənəddəki məlumatlardan görünür ki, general Sisianovda şəkililərin Rusiyaya itaət edəcəklərinə tam əminlik yox idi. Ona görə də, o, knyaz Çartoriyskiyə bildirirdi ki, Şəki xanlığı ilə imzaladığı Kürəkçay müqaviləsinin bəndinə belə bir şərt də əlavə etmişdir ki, xan öz 4 yaşlı oğlunu Tiflisə girov olaraq (əmanət) göndərməlidir [8, s. 706].

Kürəkçay müqaviləsinin imzalanmasından cəmi 1 ay sonra general Sisianovun Səlim xana yazdığı məktubdan da bu anlaşılmaqdadır. 29 iyun 1805-ci il tarixli həmin məktubda Sisianov yazır: "Mənə gəlib çatan xəbərlərə görə, siz ruslara olan güvəninizdə dəyişmisiniz və müdafiəni ləzgilərdə axtarırsınız və hətta onların yanına nümayəndələr də göndərmisiniz ... bundan əlavə, qeyd etməliyəm ki, Baba xanın qasidlərinə göstəridiyiniz lütfkar münasibət də imzaladığımız traktata və verdiyiniz sözə uyğun deyildir" [8, s.650]. Səlim xan Sisianova yazdığı cavab məktubunda bunları inkar etsə də [8, s. 651], belə tərəddüdlərin olması, hesab

edirik ki, Rusiya – İran müharibəsinin gedişatına da bağlı olmuşdur. Belə ki, 1805-ci ilin yayında Qacar qoşunlarının Qarabağdakı hərbi əməliyyatları uğurlu olub Qacar şahında bölgənin yerli hakimlərini öz tərəfinə çəkmək imkanı yaratmışdı. İran qoşunlarının 1805-ci ilin yay hərbi kampaniyasındakı qələbələri Azərbaycanda öz mövqeyini daha da möhkəmləndirmək, Şirvan, Bakı və Quba xanlarını tabe etmək imkanı vermişdi [1, s. 20; 15, s. 426, 440-441].

Bu hadisələrin ardınca general Sisianovun 1806-cı ilin fevralında Bakıda qətlə yetirilməsi də[5] Şəki xanlığının Rusiya himayəsində qalıb-qalmaması məsələsini gündəmə gətirdi. 1806-cı ilin yayında Qacar ordusunun Azərbaycanda yenidən fəallaşması Rusiyanın bölgədə mövqeyini xeyli zəiflətdi. Yerli hakimlərin, o cümlədən Şəki və Qarabağ xanlarının Qacar dövlətinin tərəfinə keçə bilmə ehtimalı Rusiyanın hakim dairələrində böyük narahatçılıq yaratmışdı. Bu, QAKA sənədlərində də təsbit edilmişdir. Məsələn, baron Budberq Rusiya qoşunlarının Qafqazdakı yeni baş komandanı qraf İ.V.Qudoviçə göndərdiyi 23 iyun 1806-cı il tarixli məktubda yazırdı: "General-leytenant Qlazenapın raportundan məlum olur ki, Səlim xanın bu yeni təbəəlikdə tərəddüdləri vardır. Bəlkə də Qarabağlı İbrahim xan da eyni vəziyyətdədir" [9, s. 330].

Məlum 1806-cı il Xankəndi faciəsində İbrahimxəlil xanın və arvadı Tububəyim xanımın övladları ilə birlikdə ruslar tərəfindən qətlə yetirilməsindən sonra [9, s. 331] isə Şəki xanı Səlim xanın Rusiya ilə bağlı tərəddüdləri qəti etiraz şəklini aldı. Şəkidə baş verən hadisələr haqqında QAKA-dakı sənədlərdən məlum olur ki, hələ P.Sisianovun sağlığında Tiflis alayının Şəkidə yerləşdirilmiş 2 rotasının komandiri mayor Parfyonov 1806-cı ilin iyununda Səlim xan tərəfindən əsir alınaraq Şəki qalasına həbs edilmişdi. Bunu ardınca isə Səlim xan rus hərbçilərinin Şəki-dən çıxarılmasına nail olmuşdu. Qacar tərəfi də bölgədə vəziyyətin onun xeyrinə dəyişdiyini görərək Şəki xanına 300 nəfər əsgər və ləzgilərdən ibarət qoşun toplamaq üçün 30 min çervon pul göndərmişdi [9, s. 268].

Yerli mənbələrdə də 1806-cı il Şəki üsyanı haqqında qısa da olsa məlumatlara rast gələ bilərik. Məsələn, Kərim Ağa Fateh yazır ki, "Və (o) vaxt ki, Qarabağlı İbrahim xan dönüb, Rusiya qoşunu onun ilə dava eləyib, İbrahim xan öləndə Səlim xanın bacısı da orada ölür. Səlim xan bu işdən küdurət eləyib, yaxındakı Rusiya qoşunundan bir neçə adam öldürür" [3, s.15]. Şəkidə Rusiya hakimiyyətinə qarşı başlamış olan hərəkat haqqında A.A.Bakıxanovda da eyni məzmunda məlumatlara rast gəlirik: "Bu zaman Şəki hakimi Səlim xan, İbrahim xanın arvadı olan öz bacısının öldürülməsi ədavətilə Rusiya dövlətilə çəkişməyə başladı. Bir müddət bundan əvvəl, Gəncədən özünə kömək gətirdiyi ruslardan bir neçə nəfərini öldürdü, qalanları Gəncəyə qayıtdılar. Bu hadisədən sonra general Nebolsin, sərdar Qudoviçin əmrilə Gəncədən Şəkiyə hərəkət etdi. Səlim xan, qabaqcadan Naibüssəltənədən çoxlu pul almışdı, Car və Avar ləzgilərini gətirib, mükəmməl qüvvə ilə, yerin çətinliyinə və lazımi hazırlığa arxalanaraq, müqavimətə girişdi. Müharibə zamanı ləzgilər qaçdı, o da naçar qalıb, ailə və əqrəbasilə vətənini buraxıb İrana getdi" [2, s. 144].

Lakin 1806-cı ilin sentyabrında rusların geniş miqyaslı hücuma keçməsi cəbhədəki və bununla əlaqədar Şəki xanlığındakı vəziyyəti də dəyişdi. Səlim xan təkrardan Rusiya himayəsinə keçmək haqqında çar I Aleksandra şəxsən müraciət etmək qərarına gəldi. Müraciətdə yazılır: "Müzəffər rus ordusu Tiflisə girdiyindən bəri mən himayəyə keçmək və xidmət etməklə əlahəzrət lütfünü qazanmışam. Amma bir az öz günahım ucbatından, bir az da şeytana uyaraq Şahənşah sarayına ümidlərimi kəsərək farsların yardımına müraciət etdim.

[5] Məlum olduğu kimi, general Sisianov Bakı və Xəzər dənizi üzərində nəzarəti ələ keçirmək üçün şəhəri 1806-cı ilin əvvəllərində mühasirə etmək əmrini vermiş, aparılan danışıqlar nəticəsində şəhərin açarlarının ruslara təslim edilməsi razılığına gəlinmişdi. Podpolkovnik E.Eristovun və bir kazak əsgərin müşayiəti ilə fevralın 8-də şəhərin açarlarının təslim edilməsi mərasiminə gələn P.Sisianov Bakı hakimi Hüseynqulu xanın əmisi oğlu İbrahim xan tərəfindən qətlə yetirilmişdir.

İndi onlardan ayrılaraq və günahımı anlayaraq üzr diləyirəm və İmperator Ali Həzrətlərindən məni xidmətçiləri qisminə qəbul etməsini rica edirəm" [9, s. 268-269].

Bu müraciətdən sonra baş komandan general-feldmarşal Qudoviç general Bulqakova yazdığı 21 sentyabr 1806-cı il tarixli məktubunda Səlim xanı, həmçinin Abbas Mirzənin yanına qaçmış Məhəmməd Həsən xanı onun göstərişi olmadan cəzalandırmamağı əmr edirdi [9, s.269] ki, bu da rus komandanlığının zaman qazanmaq məqsədindən irəli gəlirdi. Çünki çar ordusu Qacar dövləti ilə müharibə gedişində Azərbaycanın böyük bir hissəsini ələ keçirdikdən sonra, Şəkidə baş vermiş üsyanı yatırmaq üçün də qoşun göndərdi və 1806-cı il oktyabrın 22-də baş vermiş döyüşdə Şəki xanı Səlim xanın qoşunu ağır məğlubiyyətə uğradıldı. Bundan sonra Səlim xanın ələ keçirilməsi məsələsi gündəmə gəldi. General-feldmarşal Qudoviç general-mayor Nebolsinə verdiyi göstərişdə nə yolla olursa olsun Səlim xanı ələ keçirməyi, mümkün olmadığı halda isə Şəkidən çıxarmağı əmr edirdi. Bir başqa göstərişində isə V.Qudoviç Səlim xanın və bütün qohumlarının əbədi olaraq xan titulundan məhrum edilməsi əmrinin xalqa elan olunmasını istəmişdi [9, s. 269].

1806-cı ilin oktyabrında Şəkinin ruslar tərəfindən işğalından sonra general-feldmarşal Qudoviçin tövsiyəsi ilə imperator I Aleksandr tərəfindən həmin il dekabrın 10-da Xoylu Cəfərqulu xan Şəki xanı təyin edildi [9, s.271]. Lakin Şəki əhalisinin ruslara müqaviməti davam edirdi; üstəlik, xalq Cəfərqulu xanı öz hakimi kimi qəbul etmirdi. Bunun səbəblərindən biri onun Xoylu olması idisə, digər səbəbi Cəfərqulu xanın həm Şəkidə, həm də qonşu vilayətlərdə rusların əleyhinə qalxa biləcək üsyanları yatırmaq üçün ruslara yardım edəcəyini öhdəsinə götürməsi idi [9, s. 273-274]. V.Qudoviçin general Nebolsinə yazdığı 14 yanvar 1807-ci il tarixli məktubda yazılır: "Sizdən aldığım 5 yanvar tarixli raportdan məlum olur ki, Şəki əhalisi Cəfərqulu xanın üzərilərində hakim olmasını istəmirlər ... lakin Cəfərqulu xan xəyanətkar Səlim xandan fərqli olaraq Rusiyaya sədaqətini və israrını sübut etmişdir" [9, s. 274-275]. Cəfərqulu xanın hakimiyyəti dövründə (1806-1814) şəkililərin, car-balakənlilərin və ilisuluların çıxışları və yürüşləri davam etmişdi. Şəkililər və onları dəstəkləyən carlılar Məhəmməd Həsən xanın Şəki xanı təyin edilməsini istəyirdi [10, s. 542-543].

Qeyd edək ki, bu zaman Rusiyanın Qafqaz cəbhəsində vəziyyəti xeyli mürəkkəbləşmişdi. Qacar ordusunun Qarabağda, Gəncədə və Lənkərandakı əməliyyatları rus hərbi gücünü xeyli sarsıtmışdı [1, s. 27-28]. Rusların Qafqaz cəbhəsindəki uğursuzluqlarında beynəlxalq vəziyyət, o cümlədən İranda ingilislərin fəallaşması, həmçinin Napoleonla aparılan müharibə də böyük rol oynamışdı. 1812-ci ilin fevralında Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı vəzifəsinə gətirilən general Rtışevin 17 mart 1813-cü il tarixli raportundan məlum olur ki, 1812-ci ilin yayında Pirqulu xanın komandanlığı altında Qacar ordusunun Şəkiyə hücumu zamanı keçmiş Şəki xanı Səlim xan da bu hücum əməliyyatında iştirak etmiş, Cəfərqulu xan rus hərbi dəstələrinin yardımı ilə onları Şəkidən çıxarmağa müyəssər olmuşdu [11, s. 551-552]. Ümumiyyətlə, Cəfərqulu xan Azərbaycan xanları içərisində Rusiyaya tərəddüdsüz sədaqətinə görə seçilirdi. Məsələn, Rusiya müstəmləkə idarəsinin etibarını qazanmaq məqsədilə Cəfərqulu xan Şəki xanlığının ödədiyi xəracın miqdarını könüllü olaraq artırmışdı [11, s. 549].

1812-ci ilin oktyabrına doğru Rusiya – İran cəbhəsində vəziyyət dəyişməyə başladı və Aslandüzdə və Lənkəranda qazanılan qələbələr müharibənin taleyini rusların xeyrinə dəyişmiş oldu. Rusların irəliləməsindən ehtiyat edən Fətəli şah sülh danışıqlarına başlamaq qərarına gəldi. 1813-cü il oktyabrın 1-də Gülüstan düşərgəsində iki dövlət arasında hərbi əməliyyatların dayandırılması haqqında 50 günlüyünə barışıq imzalandı. Daha sonra, oktyabrın 12-də Rusiya imperiyası və Qacar dövləti arasında Gülüstan sülhü imzalandı [ 11, s. 736-738].

Gülüstan sülh müqaviləsinin üçüncü maddəsinə görə, İran, Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Talış xanlıqlarının, Şərqi Gürcüstan və Dağıstanın Rusiyanın

hakimiyyəti altına keçməsini təsdiq edirdi. Beləliklə, Gülüstan müqaviləsi ilə Azərbaycan ərazisi iki dövlət arasında bölüşdürüldü, bundan əvvəl faktiki olaraq asılılığı qəbul etmiş olan bəzi xanlıqlar, o cümlədən Şəki xanlığı Rusiyanın hakimiyyəti altına keçdi. Hakimiyyətdə olan Cəfərqulu xanın 1814-cü ilin avqustunda vəfatından sonra , onun ortancıl oğlu İsmayıl paşa [6] həmin ilin sentyabrında Şəki xanı təyin edildi [11, s. 553-554]. İsmayıl xanın hakimiyyəti dövründə (1814-1819) Şəkidə Rusiya hakimiyyətinə qarşı mübarizə yenidən qızışdı. Bu illərə aid raport və məktubları araşdırdığımızda məlum olur ki, Şəki əhalisi atası kimi, İsmayıl xanın da hakimiyyətə gəlməsindən narazı olmuşdur. Bu zaman Şəkidə müxalif güclər yenə də iki qrupa ayrılmışdı: Səlim xanın tərəfdarları və qardaşı Məhəmməd Həsən xanın tərəfdarları General Rtışevin imperatora yazdığı raportda qeyd olunur ki, Cəfərqulu xanın vəfatı xəbərini eşidər-eşitməz Səlim xan İrandan, Məhəmməd Həsən xan isə Tiflisdən öz adamlarını Şəkiyə göndərərək, üsyana yol açmışlar [11, s. 558]. Üsyançılar Car-Balakən və Dağıstan əhalisi içərisində də özlərinə dəstək tapmışlar. Şəkililərin İsmayıl xanın hakimiyyətinə qarşı iğtişaşları 1816-1818-ci illərdə də davam etmişdir. 1819-cu ilin əvvəllərinə doğru Şəkidə İsmayıl xanın hakimiyyətinə qarşı narazılıq daha da artdı. QAKA-dakı bəzi sənədlərdən məlum olur ki, rus müstəmləkəçi dairələri İsmayıl xanın bu narazılıqlardan qorxaraq İrana qaçma planın olduğundan da şübhələnmişdilər; bu şübhələr səbəbilə də xanın bütün hərəkətlərinə nəzarət etmək üçün onu bütün səfərlərində rus konvoyu müşayiət edirdi [12, s. 733]. 1819-cu il iyulun 24-də İsmayıl xanın ölümü ilə Şəkidə təkcə xoyluların mövqeyi dəyişmədi, xanın vəfatı eyni zamanda Şəki xanlığının da mövcudluğuna son qoyulması üçün bəhanə oldu [12, s. 738].

1816-cı ildən Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı vəzifəsində olan generalı A.Yermolovun Şəki xanı İsmayıl xanın vəfatı ilə əlaqədar general Velyaminova yazdığı məktubda (31 iyul 1819-cu il tarixli) ölən xanın varislərinin olmaması səbəbilə xanlığın ləğv edilməsi və burada, Quba xanlığında olduğu kimi, birbaşa rus idarəçiliyinin qurulması məqsədəuyğun sayılırdı [12, s. 738-739]. Elə bu məktuba əlavə edilmiş bəyannamədə (proklamasiya) general Yermolov Şəki xanlığının əhalisinə müraciət edərək xan üsul-idarəsinin ləğv edildiyini elan edirdi. Bəyannamədə göstərilirdi ki, "xanlıq ləğv edilir və yerində Şəki vilayəti yaradılır" [12, s.739]. Bu zamana qədər daxili idarəçiliyində nisbətən muxtariyyətini saxlayan Şəki xanlığının ləğv edilməsi ilə onun xarici siyasi əlaqələri də başa çatdı.

1826-1828-ci illər II Rusiya – Qacar müharibəsi gedişində Qacar dövlətinin yardımına arxalanaraq Şəkidə xanlığın bərpa edilməsi cəhdləri olsa da, uğursuzluqla nəticələndi. General Yermolovun Həştərxan qubernatoruna yazdığı 23 sentyabr 1826-cı il tarixli məktubda rus hakimiyyətinə qarşı üsyan etmiş vilayətlər olaraq Bakı, Şamaxı, Şəki, Qarabağ və Lənkəran göstərilməkdədir [13, s.379]. Yenə general Yermolovun 10 oktyabr və 21 oktyabr 1826-cı il tarixli raportlarından görünür ki, Səlim xanın oğlu Hüseyn xan Şəkidə hakimiyyəti ələ keçirmiş, oktyabrın 19-da rus qoşunları Şəkiyə daxil olduqdan sonra qaçmışdı. Bununla da Şəki xanlığının ruslar tərəfindən işğalı başa çatdırılmışdı.

*Nəticə.* Beləliklə, 1743-cü ildən faktiki müstəqil olan Şəki xanlığı 1806-cı ildə Rusiya imperiyası tərəfindən işğal edildi. 1813-cü il Gülüstan müqaviləsi ilə Rusiya hakimiyyəti altına keçən Şəki xanlığının mövcudluğuna 1819-cu ildə son qoyuldu: torpaqlarında komendant üsul-idarəsi yaradılan Şəki 1826-cı ildə təkrar işğal edildi. Bu işğal Türkmənçay müqaviləsi ilə yenidən təsbit edildi. 1828-ci il fevralın 9-dan 10-na keçən gecə Türkmənçayda

[6] General Rtışevin general-mayor Axverdova yazdığı 11 sentyabr 1814-cü il tarixli məktubundan məlum olur ki, Cəfərqulu xanın böyük oğlu Əhməd xan Qacar dövlətinin təbəəliyini qəbul etdiyi üçün, Rusiya baş komandanlığı xanın ikinci oğlu İsmayıl paşanı Şəkidə hakimiyyətə gətirmişdir. Qeyd edək ki, sonradan Əhməd xan Rusiya təbəəliyinə keçmişdir.

imzalanan sülh müqaviləsinin 2-ci maddəsinə görə, Gülüstan müqaviləsinin qüvvədən düşdüyü bildirildi, onun əvəzinə Türkmənçay müqaviləsi qüvvəyə mindi. Bu müqavilə Azərbaycan torpaqlarının bölüşdürülməsini başa çatdırdı.

Şəki xanlığının sonrakı siyasi tarixinə gəlincə, Rusiyanın müstəmləkəçi idarəçiliyi dövründə: 1840-cı ildə Kaspi vilayətinin tərkibində Şəki qəzası yaradıldı. 1846-cı ildə Kaspi vilayəti ləğv edildikdən sonra, Şəki qəzası Şamaxı quberniyasının tərkibinə daxil edilərək Nuxa qəzası adlandırıldı. Nuxa qəzası 1859-cu ildə Bakı quberniyasının, 1868-ci ildə isə Yelizavetpol quberniyasının tərkibinə daxil edildi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 7 cilddə. IV cild (XIX əsr]. Bakı, “Elm”, 2007, 504 s.+48 s. Illüstrasiya.
2. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, Minarə, 2000, 224 s.
3. Kərim Ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi. 2-ci təkrar nəşri. Bakı, Azərbaycan Ensiklopediyası NPB, 1993, 32 s.
4. Məmmədova A. Car-Balakən camaatlığı (XVII əsrin sonu-XIX əsrin 30-cu illəri]. Bakı, 2009, 256 s.
5. Şəki xanlığının tarixindən. Bakı, 1958. 67 s.
6. Şükürov Q. Şeki Hakimi Selim Han’ın Osmanlı Devleti’ne İlticası // ETÜSBED, III, 7, Aralık, 2018, s. 111-129.
7. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том I , 1866, 827 с.
8. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том II , 1868, 1238 с.
9. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том III , 1869, 767 с.
10. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том IV , 1870, 1019 с.
11. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том V , 1873, 1187 с.
12. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том VI, I часть 1874, 957 с.
13. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том VI, II часть 1875, 954 с.
14. Военная энциклопедия. // Кнорринг. В 18 т. Под ред. В.Ф.Новицкого и др. Т.12, Санкт-Петербург, 1913, с.601
15. Лапин В.В. Цицианов. Москва, «Молодая гвардия», 2011, 542 с.
16. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, Изд-во АН Азерб. ССР, 1948, 190 с.
17. Летифова Э.М. Илисуйское султанство (историко-этнографическое исследование]. Баку, 2010
18. Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство. Баку, «Алтай», 1999, 152 с.

УДК 94(479.24)

*Гюнай Халик гызы Талыбова*
*Гянджинское отделение НАНА*

ДИПЛОМАТИЧЕСКИЕ ОТНОШЕНИЯ ШЕКИНСКОГО ХАНСТВА С РОССИЙСКОЙ ИМПЕРИЕЙ (ПО МАТЕРИАЛАМ АКАК)
*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Российская империя, Шекинское ханство, Селим-хан, Кюракчайский договор

Внутренняя и внешняя политика Шекинского ханства, сыгравшего уникальную роль в истории азербайджанской государственности, на протяжении всего своего существования находилась под постоянным контролем Российской империи, сделавшей оккупацию Южного Кавказа одним из основных направлений своей политики. В частности борьба Шекинского ханства за объединение Азербайджана не соответствовала политическим интересам Российской империи. С первых лет своего существования меры, предпринимаемые Шекинским ханством по расширению территории и укреплению влияния, начали беспокоить Российскую империю, в результате чего ханство сначала было захвачено посредством политических манёвров, а затем полностью упразднено. Акты Кавказской археологической комиссии — ценный источник, точно отражающие рассматриваемые политические вопросы, — позволяют глубоко изучить этот период. Статья написана на основе ценных исторических документов, сохранившихся в различных томах Кавказской археологической комиссии и дошедших до наших дней.

UDC 94(479.24)

*Gunay Khalig Talibova*
*Ganja Branch of ANAS*

DIPLOMATIC RELATIONS OF THE SHEKI KHANATE WITH THE RUSSIAN EMPIRE (BASED ON MATERIALS FROM ACAC)
*SUMMARY*

*Keywords:* Azerbaijan, Russian Empire, Sheki Khanate, Selim Khan, Kurakchay Treaty

The domestic and foreign policy of the Sheki Khanate, which played a unique role in the history of Azerbaijani statehood, during its existence was constantly monitored by the Russian Empire, which made the occupation of the South Caucasus one of its main political lines. In particular, the struggle of the Sheki Khanate for the unification of Azerbaijan was not in line with the political interests of the Russian Empire. From the first years of its existence, the measures taken by the Sheki Khanate to expand its territory and strengthen its influence began to worry the Russian Empire after a certain stage, as a result of which the Khanate was first occupied by the empire through political maneuvers, and then completely abolished. The Acts of the Caucasian Archaeological Commission, a valuable source that accurately reflects the political issues in question, allow us to study that period in depth. The article is written on the basis of those valuable historical documents that have been preserved in various volumes of the Caucasian Archaeological Commission and have survived to this day.

***Daxil oldu: 29.10.2025-ci il***